**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

**Əlyazması hüququnda**

**MEHRİBAN VAQİF QIZI CƏFƏROVA**

# MUSİQİ MƏŞĞƏLƏLƏRİNDƏ MUĞAMLARIN ÖYRƏDİLMƏSİ ZAMANI YUXARI SİNİF ŞAGİRDLƏRİNDƏ MƏNƏVİ KEYFİYYƏTLƏRİN FORMALAŞDIRILMASI YOLLARI

5804.01-Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**NAXÇIVAN – 2017**

İş Naxçıvan Dövlət Universitetinin **"Pedaqogika və psixologiya"** kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Pedaqogika üzrə elmlər doktoru,
professor **Fərahim Balakişi oğlu Sadıqov**

**Rəsmi opponentlər:** Pedaqogika üzrə elmlər doktoru,
professor **Şahin Tağı oğlu Tağıyev**

Pedaqogika üzrə fəlsəfə doktoru,
dosent **Qızıltac Tarverdi qızı Şahbazova**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsil nəzəriyyəsi şöbəsi**

**Müdafiə ____** iyun 2017-ci il tarixdə saat ____ da Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD. 02.121 Dissertasiya Şurası əsasında yaradılmış B/FD. 02.121 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi, Əsas bina, Böyük akt zalı

**Dissertasiya** ilə Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

**Avtoreferat** ___ _______ 2017-ci il tarixdə göndərilmişdir.

**DİSSERTASİYA ŞURASININ**
**ELMİ KATİBİ:** **Dosent İ.Z.CƏFƏROV**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Qədim və zəngin tarixi ilə dünya xalqları ailəsində özünəməxsus mövqe qazanmış Azərbaycan xalqının bir sıra milli-mənəvi dəyərləri bu xalqın dərin zəkaya, bənzərsiz bədii məntiqə, estetik zövqə, yüksək istedad səviyyəsinə, talantlılıq imkanlarına malik olmasını sübut edir.

Azərbaycan xalqının milli-mənəvi dəyərləri sırasında muğamlar xüsusi yer tutur. Dərin məna çalarlarını özündə səciyyələndirən, söz və melodiya tərəflərinə malik olan muğamlar dinləyicilərə bədii zövq verir, qulaq asanların estetik tərbiyəsini inkişaf etdirir, mədəni istirahətlərini təşkil edir və həm də mənəvi keyfiyyətlərini formalaşdırır. Azərbaycan muğamları şifahi xalq yaradıcılığı nümunəsi kimi yaranmış, folklor materialı kimi yaddaşlarda qalmış və bir sıra el sənətkarları, düha sahibləri tərəfindən nəzəri cəhətdən təkmilləşdirilərək sistemə salınmışdır. XI əsrdə Əl-Fərabi elm, muğam və musiqi nəzəriyyəsi yaratmış (əsər ərəbcə "Kitab əl-musiqi əl-Kəbir" adlanır), Bəhmənyar Azərbaycan muğamlarının məntiqi mahiyyətini nəzəri cəhətdən əsaslandırmış, XI əsrdə Qətran Təbrizi, XII əsrdə Nizami Gəncəvi ("Xəmsə"də) muğam dəstgahlarını təhlil etmiş, XIII əsrdə Səfiyəddin Urməvi muğam dəstgahlarını səma cisimləri ilə müqayisəsini aparmış, XIV əsrdə Xacə Əbdülqadir Marağalı Azərbaycan simli musiqi alətlərini təkmilləşdirərkən muğam ifaçılığına da yeni yol və üslub gətirmişdir. XIX əsrdə Qarabağda Mir Möhsün Nəvvab "Musiqi istilahlarının şərhi" ("Vüzuhil- ərqam") adlı əsərində muğam dəstgahlarının şöbələrinin, guşələrinin, nəfəslərinin, muğam rənglərinin, dəramədlərinin, müqəddimələrinin, təsniflərinin bütöv bir sistemini vermişdir. XX əsrdə böyük mütəfəkkir Üzeyir bəy Hacıbəyli özünün "Azərbaycan xalq musiqisinin əsasları" adlı kitabında Azərbaycan muğam dəstgahlarının sırasını dəqiqləşdirərək 7 əsas muğamın lad, məqam xüsusiyyətlərini sistemə salmışdır.

1918-20-ci illərdə müstəqil dövlət quruculuğu dövründə Şərqdə ilk respublika olaraq Azərbaycan Demokratik Cümhuriyyətinin ümumtəhsil məktəblərində tədris edilən nəğmə ("Türkü") dərslərində şagirdlərə öyrədilən mahnı-melodiyaların böyük əksəriyyəti muğam ladında tərtib olunur, muğam, təsnif və rəngləri üzərində qurulurdu.

Sovetlər dönəmində Azərbaycan Respublikasının orta təhsil məktəb - lərində ibtidai siniflərdən başlayaraq musiqi-nəğmə dərsləri keçilsə də, muğamlar sovet ideologiyasının siyasi olaylarının təqibinə tuş gəlmişdir. 20-30-cu illərdə muğamların məktəblərə gətirilməsi yasaq olmuşdur. Lakin 50-ci illərdən etibarən Azərbaycan məktəblərində muğamların lad-məqam xü-

susiyyətləri ilə məktəblilər tanış edilmişdir. 70-ci illərdən etibarən ibtidai siniflərdən başlayaraq bütün muğam dəstgahlarının şöbələri ilə tanışlıq, muğam dinlənilməsi I-VIII siniflərin tədris proqramına daxil edilmişdir.

Təhsil İslahatına dair direktiv sənədlərdə milli-mənəvi dəyərlərimizin ən mühüm tərkib hissələrindən biri olan muğam mədəniyyətimizin inkişaf etdirilməsi ümumtəhsil məktəblərində çalışan musiqi müəllimləri və bu sahənin mütəxəssisləri qarşısında çox mühüm vəzifələr qoyur. Bu mühüm vəzifələrin həlli baxımından ən zəngin milli-mənəvi sərvətimiz olan muğamlarımızın öyrədilməsini və eləcə də təbliğini zəruri edən bir sıra cəhətlər vardır. Onlardan bəzilərini nəzərdən keçirək:

- Azərbaycan muğamlarının tədrisini zəruri edən ən başlıca səbəblərdən birincisi muğamlarımızın hərtərəfli dövlət qayğısı ilə əhatə olunmasıdır. Böyük öndərimiz Heydər Əliyev muğamlarımızın ən zəngin milli-mənəvi dəyərlərimiz kimi qorunub gələcək nəsillərə çatdırılmasını tövsiyə edirdisə, möhtərəm Prezidentimiz İlham Əliyev cənabları muğamlarımızı milli sərvətimiz kimi yetişən nəslə sevdirməyi məsləhət görür. Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Millət Vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü və qayğısı sayəsində isə "Muğam Evi" inşa edilmiş, respublika və beynəlxalq miqyaslı muğam müsabiqələri, festivalları keçirilmişdir. Bütün bunlar muğamlarımızın təlqin, təbliq, təşviq olunmasını və daha ciddi şəkildə öyrənilməsini zəruri edir.

Muğamlarımızda Azərbaycan və ümumtürk koloritinin olması onların əxlaqi-mənəvi keyfiyyətlər aşılaması imkanlarını artırır. Bu xüsusda muğamların adında, melodiya tərəfində, söz mətnində yetişən nəslin nümayəndələri üçün zəruri olan mənəviyyat normaları onlarda yurdsevərlik, torpağı yad nəzərlərdən qorumaqlıq, düşmənlərə nifrət bəsləməyi aşılayır. Klassik muğam dəstgahlarımızda, bəzi muğam şöbələrində özünü göstərən qəhrəmanlıq motivləri dinləyici şagirlərdə igidlik, qoçaqlıq, mübarizlik, əzmkarlıq, cəsarətlilik, mətanətlilik, şərafətlilik, rəşadətlilik, münəvvərlik, qələbə əzmi kimi əxlaqi-mənəvi keyfiyyətləri üzə çıxarır və formalaşdırır. Hansı ki, belə keyfiyyətlər yetişən nəslin mənəviyyatca bütöv olmasına köməklik göstərir.

Məhz bu baxımdan muğam mədəniyyətinin öyrədilməsi yetişən nəslin estetik-bədii zövqlərini inkişaf etdirməklə məhdudlaşmır. Muğamlar yüksək bədii zövqə malik yeni nəsli kamilləşdirməklə yanaşı, mənəviyyatca bütöv şəxsiyyətlər də yetişdirir. Necə deyərlər, sağlam bədəndə sağlam ruh olar. Ona görə də ümumtəhsil məktəblərinin yuxarı siniflərində çalışan mütəxəssislər muğamlarımızın öyrədilməsini, tədrisini, təbliğini və

təşviqini şərtləndirən cəhətlərin nəzərə alınmasına xüsusi səy göstərməlidirlər.

Problemin tədqiqi ilə bağlı ən zəruri amillərə gəlincə deməliyik ki, bu günə qədər muğamlar estetik tərbiyə kontekstində tədqiq edilmişdir. Əli-heydər Həşimov, Sabir Quliyev, Oqtay Rəcəbov, Fərahim Sadıqov, Tamilla Kəngərlinskaya, Nazim Kazımov, Əvəz Rəhmətov, Elxan Babayev, Qafar Namazəliyev, Ələkbər Məmmədov, Ramiz Zöhrabov kimi müəlliflər mu-ğamlara yalnız iki istiqamətdən yanaşmışlar. Yəni müəlliflərin bir qismi muğamları estetik tərbiyə kontekstindən, ikinci bir qismi isə sənətşünaslıq baxımından təhlil etmişlər. Onların heç biri muğamların mənəvi keyfiyyət-lər aşılayan tərəflərinə toxunmamışlar. Ona görə də biz tədqiqatımızı mu-ğamların öyrədilməsi zamanı şagirdlərin milli-mənəvi keyfiyyətlərinin for-malaşdırılması probleminə həsr etdik.

**Tədqiqatın obyekti** V-VIII sinif şagirdlərinin Azərbaycan klassik muğamları ilə tanışlığı zamanı onlara mənəvi keyfiyyətlərin aşılanması pro-sesidir.

**Tədqiqatın predmeti** kimi Azərbaycan orta ümumtəhsil məktəbləri-nin V-VIII siniflərində muğamların öyrədilməsi, ifası və dinlənilməsi həyata keçirilərkən şagirdlərə milli-mənəvi keyfiyyətlərin aşılanmasının imkanları və yolları problemi götürülmüşdür.

**Tədqiqatın məqsədi** müasir şəraitdə V-VIII sinif şagirdlərinə milli-mənəvi dəyərlərimizin ən layiqlisi sayılan klassik muğamlarımız öyrədil-ərkən onların mənəvi keyfiyyətlərinin üzə çıxarılması, inkişaf etdirilməsi, formalaşdırılması və təkmilləşdirilməsindən ibarətdir. Dissertasiyanın bu ali məqsədinə çatmaq üçün elmi fərziyyə də müəyyənləşdirilmişdir.

**Tədqiqatın fərziyyəsinə** görə, əgər V-VIII siniflərin musiqi məşğə-lələrində və dərsdənkənar tədbirlərində Azərbaycan klassik muğamlarının dinlənilməsi və öyrənilməsi zamanı onların lad-məqam xüsusiyyətlərinin aydınlaşdırılmasında, şöbə və guşələrin etimoloji məna çalarlarının izahın-da, muğamların dinləyicidə oyatdığı həssas duyğuların, emosional hisslərin aşılanmasında musiqi müəllimi düzgün mövqe tutarsa:

- əgər onlar muğamın söz tərəfindəki mənəvi tərbiyə komponentləri-ni aça bilərlərsə;
- muğam melodiyasının mənəvi-əxlaqı normalarını üzə çıxara bilən tərəflərini tənzimləməyi bacararlarsa;
- musiqi məşğələsi aparanlar muğamların söz və melodiya tərəflərin-dəki insan mənəviyyatını riqqətə gətirən səciyyəvi xüsusiyyətləri görməyi, qiymətləndirməyi və şagirdlərə çatdırmağı bacararlarsa, deməli, onlar şa-girdlərin mənəvi keyfiyyətlərinin formalaşdırılması işində nailiyyətlər qa-

zana bilərlər.

Tədqiqatın ali məqsədinə və **işçi fərziyyəsinə** uyğun aşağıdakı **vəzifələrin** həll olunmasına cəhd göstərilmişdir:

- musiqi dərslərində muğamların tədrisi zamanı şagirdlərə mənəvi keyfiyyətlərin aşılanması işinin imkan və yollarını müəyyənləşdirmək;
- dərsdənkənar tədbirlərdə muğamların dinlənilməsi və öyrədilməsi zamanı məktəblilərə mənəvi keyfiyyətlərin aşılanması yollarını müəyyənləşdirmək;
- məktəbin məktəbdənkənar tərbiyə müəssisələri ilə əlaqəsi prosesində yuxarı sinif şagirdlərinə muğamların öyrədilməsi zamanı milli-mənəvi keyfiyyətlərin aşılanmasının imkan və yollarını üzə çıxarmaq.

**Tədqiqatin metodoloji əsasını** pedaqoji tədqiqat problemləri ilə bağlı faktları, hadisələri, prosesləri öyrətmək, dərk edib qiymətləndirmək, zəruri hallarda dəyişdirmək:

- musiqi məşğələlərində muğamların öyrədilməsi zamanı məktəblilərin, xüsusilə V-VIII sinif şagirdlərinin mənəvi keyfiyyətlərinin formalaşdırılması işinin mahiyyətini, məzmununu öyrənmək, məqsəd-vəzifələrini müəyyənləşdirmək;
- problemin elmi-pedaqoji ədəbiyyatdakı vəziyyətini araşdırmaq;
- problemin məktəb təcrübəsindəki vəziyyətini öyrənib ümumiləşdirmək;
- problemin pedaqoji-psixoloji əsaslarını müəyyənləşdirmək;
- təlim prosesində muğamların öyrənilməsi və dinlənilməsi prosesində V-VIII sinif şagirdlərinin mənəvi keyfiyyətlərinin üzə çıxarılması yollarını müəyyənləşdirmək məqsədi ilə araşdırılaraq sistemləşdirilən tələblərin, prinsiplərin, metodların və digər nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları.** Tədqiqat zamanı müşahidə, müsahibə, anket sorğusu, nəzəri təhlil, məktəb sənədlərinin öyrənilməsi, şagird özfəaliyyətinin təhlili və eksperiment metodlarından istifadə olunmuşdur. Eksperimental işin isə **müəyyənedici, öyrədici** və **yoxlayıcı** mərhələləri üzrə fəaliyyət növləri tətbiq edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada ilk dəfə olaraq muğamların mənəvi keyfiyyətlər aşılayan səciyyəvi xüsusiyyətləri təhlil olunmuşdur. Bu vaxta qədər istər Azərbaycanda, istər Şərq ölkələrində, istər türkdilli ölkələrdə bir sözlə, muğam folkloru mövcud olan ölkələrdə muğamlar yalnız estetik-bədii zövq tərbiyəsi kontekstində təhlilə, tədqiqata cəlb edilmişdir. İlk dəfə olaraq tərəfimizdən muğamların mənəvi keyfiyyətləri aşılaya bilmək imkanları, məktəblilərə mənəvi keyfiyyətlər qazandırmaq xüsusiyyətləri araşdırılaraq yeni elmi ideyalar irəli sürülmüş, dəyərli

mühakimələr yürüdülmüşdür.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın ən real praktik əhəmiyyəti onunla müəyyənləşir ki, dövlətimizin muğamların öyrədilməsi və təbliğinə önəm verdiyi indiki şəraitdə muğamların estetik-bədii zövqü mükəmməlləşdirən səciyyəvi xüsusiyyətləri ilə yanaşı, onların mənəvi keyfiyyətləri aşılaya bilmək kimi əlamətlərini hansı yollarla üzə çıxarmağın praktik əsasları dəqiqləşdirilmişdir. Həmin praktik iş üsulları, əyani vəsaitlər, musiqi alətləri, İKT və interaktivlər və bu kimi digər təcrübə örnəkləri dissertasiyaya daxil edilmişdir. Həmin örnəklər praktikada sınaqdan çıxarılaraq muğam folklorunun öyrədilməsi ilə məşğul olan mütəxəssislərə təqdim edilməsi ilə səciyyələnir.

**Tədqiqatın mənbələri.** Problem araşdırılaraq işlənilərkən Təhsil İslahatına və uşaqların estetik tərbiyəsinə dair bir sıra direktiv sənədlərdən, o cümlədən Azərbaycan Respublikası Prezidentinin muğam ifaçılığına dair sərəncamları, göstərişləri, tövsiyə və nitqlərindən, Heydər Əliyev Fondunun Azərbaycan muğamlarının təbliği ilə bağlı həyata keçirdiyi tədbirlər planları ilə bağlı sənədlərdən, şifahi xalq yaradıcılığı nümunələrindən, Azərbaycan klassiklərinin muğam və qəzəl yaradıcılığından, tarixi məxəzlərdən, arxiv sənədlərindən, mövzu ilə bağlı audio-vizual vasitələrdən, İKT nümunələrindən və digər yardımcı və tədris vəsaitlərindən istifadə edilmişdir.

**Müdafiəyə təqdim olunan əsas müddəalar:** Tədqiqatdan alınan nəticələr qismində aşağıdakı elmi müddəaları müdafiəyə təqdim edirik:

- Klassik muğamlarımızın estetik-bədii zövq tərbiyəsi ilə yanaşı, onların milli-mənəvi dəyərlər kimi yuxarı sinif şagirdlərinin mənəvi keyfiyyətlərinin formalaşmasına təsirinin imkanları elmi şəkildə öyrənilməli və tətbiq olunmalıdır.
- Azərbaycan muğamları yuxarı sinif şagirdlərinin estetik-bədii zövqlərini formalaşdırmaqla yanaşı, onların mənəviyyat bütövlüyünü təmin edir.
- Təlim prosesində muğamları öyrədən zaman onların mənəvi tərbiyə baxımından imkanları üzə çıxarıldıqda yuxarı sinif şagirdlərinə mənəvi keyfiyyətlər aşılayan bu muğamların özlərinin dəyəri, sanbalı, imici və tutumu artır.
- Dərsdən və məktəbdənkənar tədbirlərdə muğamların öyrədilməsi zamanı yuxarı sinif şagirdlərinə muğam şöbələrinin estetik tərbiyə elementlərini aşılamaqla yanaşı, mənəvi keyfiyyətləri də təlqin etmək onları mənəviyyatca bütövləşdirir.
- **Tədqiqatın aprobasiyası.** Dissertasiyanın mövzusu 21 yanvar

2013-cü il tarixdə Naxçıvan Dövlət Universitetinin Elmi Şurasında və Təhsil Tədqiqatları üzrə Problem Şurasının 05 iyun 2013-cü il tarixli iclasında təsdiq edilmişdir. İş Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın ümumi məzmunu məqalə və tezislər şəklində çap olunmuşdur. Mövzu ilə əlaqədar 14 məqalə və tezis nəşr edilmişdir. Qazaxıstan ve Poltava şəhərində dərc olunan elmi məcmuədə məqalələr öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya girişdən, 7 yarımfəsli özündə birləşdirən 2 fəsildən, nəticə-təkliflərdən və istifadə olunan ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsəd, fərziyyə və vəzifələri, metodoloji əsası, metodları, elmi yeniliyi, nəzəri-praktik əhəmiyyəti, tədqiqatın mənbələri, müdafiəyə təqdim olunan müddəalar, işin aprobasiyası, quruluşu öz əksini tapmışdır.

Dissertasiyanın birinci fəsli **"Musiqi məşğələlərində muğamların öyrədilməsi zamanı məktəblilərin mənəvi keyfiyyətlərinin formalaşdırılması işinin mahiyyəti, məzmunu, məqsəd və vəzifələri"** adlanır.

Dörd yarımfəsildən ibarət olan bu fəslin **"Problemin mahiyyəti"** adlanan birinci yarımfəslində orta ümumtəhsil məktəblərinin V-IX siniflərində musiqi məşğələlərində Azərbaycan muğamlarının hər birinin öyrənilməsi zamanı məktəblilərin estetik-bədii zövqləri ilə yanaşı, onların mənəvi keyfiyyətlərinin formalaşdırılması işinin əsas mahiyyəti açıqlanır. Burada musiqi müəllimlərinin muğamların təşəkkülü, inkişaf mərhələləri, adlarının etimoloji məna çalarları və bu kimi məsələlərə bağlı şagirdlərə məlumatların çatdırılmasına necə nail olmalarının elmi-pedaqoji əsasları barədə məlumat verilir. Yarımfəsildə muğam nümunələrinin yaradıcıları haqqında verilən məlumatların hər birinin mənəvi keyfiyyətlər aşılaya bilməsi barədə də şərhlərin aparılması zəruri hesab edilir.

Yarımfəsildə göstərilir ki, Əl-Fərabi on bir cildlik muğam ensiklopediyasında şərh etdiyi muğamların hər birini (təəssüf ki, onların hamısı dövrümüzə qədər gəlib çıxmamışdır – M.C) milli-mənəvi dəyərlər səviyyəsinə yüksəltmişdir.

Milli-mənəvi-əxlaqi dəyərlər Azərbaycan xalqının milli koloritindən yaranan nümunəvi davranış normalarının məzmununu özündə ehtiva edir. Mənəvi-əxlaqi dəyərlər bir insanın şəxsində yaranır, təkmilləşir və sosial

mahiyyət kəsb edir. Yarımfəsildə göstərilir ki, tədqiqatımızın əsas obyektini mənəvi keyfiyyətlərin formalaşması təşkil etdiyi üçün"mənəvi keyfiyyətlər"anlayışına da aydınlıq gətirmək lazım gəlir.

"Mənəvi keyfiyyətlər" anlayışının birinci tərəfindəki "mən" sözü bu anlayışın əsasını, necə deyərlər, təməlini, özəyini təşkil edir. Burada "mən" bir adamın şəxsində onun "mən"ini təsdiq edən, kimliyini ifadə edən insan obrazını yada salır. Hansı ki, bu insanın, birinci şəxsin özünəməxsus olan davranış normaları vardır. Onun davranış normalarının nümunəvi olması həmin şəxsin necə adam olmasına dəlalət etdiyi üçün bu davranış normaları onun əxlaqının əsas meyarı kimi başa düşülür. Deməli, bir insanın "mən"-indəki nümunəvi davranış normaları onun əxlaqının hansı səviyyədə olmasını təyin edən meyar kimi qəbul olunur. Ona görə "mənəvi tərbiyə", "mənəvi keyfiyyət" deyəndə hər iki halda bir "mən"in nümunəvi əxlaqi sifətlərindən yaranan nümunəvi davranış normalarının məcmusu nəzərdə tutulur. Ona görə mənəvi keyfiyyətlər deyəndə biz onu elmi-pedaqoji cəhətdən aşağıdakı şəkildə ifadə edə bilərik ki, b**ir şəxsin ən yaxşı əxlaqi sifətlərindən yaranan ən nümunəvi davranış normalarının məcmusuna mənəvi keyfiyyətlər deyilir.**

I fəslin **"Problemin elmi-pedaqoji ədəbiyyatda qoyuluşu"** adlanan ikinci yarımfəslində problem baxımından mövcud elmi, pedaqoji, metodik ədəbiyyatın təhlili aparılmışdır. Yarımfəsildə Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində musiqi təlimi təşkil olunan vaxtlardan etibarən çap olunan elmi-pedaqoji ədəbiyyatda muğamlar barədə verilən məlumatlar müqayisəli şəkildə təhlil olunur.

Yarımfəsildə göstərilir ki, musiqi məşğələlərində muğamların öyrədilməsi zamanı məktəblilərin mənəvi keyfiyyətlərinin formalaşdırılması problemi tam yenidən araşdırılmasına zəruri ehtiyac duyulan, geniş tədqiqata, ciddi təhlillərə ehtiyacı olan problem olduğu üçün onun elmi, pedaqoji, hətta metodik ədəbiyyatda qoyuluşunu təhlilə cəlb etmək lazım gəlir. Əlbəttə, musiqi məşğələlərində şagirdlərə estetik-bədii zövq elementlərinin aşılanması, musiqinin tədrisi metodikası, musiqi əsərlərinin dinlənilməsi, bəstəkar mahnılarının vokal xarakteri, musiqi məşğələlərində tərbiyə məsələləri, musiqili-süjetli, musiqili-hərəkətli-kütləvi oyunlar, musiqili-didaktik oyunlar, musiqi dərnəkləri, bədii özfəaliyyət musiqi dərnəkləri, musiqili tədbirlər, irihəcmli musiqi əsərlərinin estetik tutumu və bu kimi istiqamətlər üzrə ölkəmizdə müxtəlif xarakterli tədqiqatlar aparılmışdır. Özü də aparılan bu tipli tədqiqatların hamısında şagirdlərin estetik-bədii tərbiyəsinin formalaşdırılması önə çəkilmişdir. Lakin eyni sözləri muğamların tədrisi ilə bağlı demək doğru olmaz. Bu, hər şeydən əvvəl, onunla izah edilməlidir ki,

80-ci illərə qədər orta ümumtəhsil məktəblərinin I-VIII sinifləri üçün hazırlanan tədris proqramlarının heç birində muğam dəstgahları ilə tanışlıq və ya onların şöbə və guşələrinin dinlənilməsinə dair elmi-pedaqoji-metodik cəhətlərdən faydalı olan dəyərli göstərişlər yoxdur. 80-ci illərdən etibarən hazırlanan və müəllifləri Oqtay Rəcəbov və Vidadi Xəlilov olan eksperimental proqramlarda muğamların demək olar ki, hamısı haqqında musiqi ədəbiyyatı mərhələsində məlumat verilməsi və onların şöbə və parçalarının dinlənilməsi ilə bağlı göstərişlər vardır. Təəssüf ki, həmin göstərişlər şagirdlərin estetik tərbiyəsi ilə məhdudlaşdırılmışdır.

S.Ələsgərov, Ə.Məmmədov, S.Quliyev, N.Məlikməmmədov, Ə.Həşimov, O.Rəcəbov, V.Xəlilov, F.Sadıqov, S.Əsgərova, Q.Məmmədova, M.Məmmədova, Q. Abdulla, Ə.Ələkbərov və digər bu kimi tədqiqatçıların əsərlərində musiqi melodiyalarının, mahnıların, xalq nəğmələrinin öyrədilməsi və bu zaman muğamların öyrədilməsinə yer ayrılmaması faktları da bu yarımfəsildə öz şərhini tapır.

I fəslin **"Problemin məktəb təcrübəsində qoyuluşu"** adlanan üçüncü yarımfəslində göstərilir ki, məktəb təcrübəsi ilə bağlı görülən işlər zamanı eksperimentin bütün mərhələlərində elmi-pedaqoji-metodik işlər tamamlanmışdır. Yəni birinci mərhələdə musiqi məşğələlərində muğamların öyrədilməsi zamanı V-VIII sinif şagirdlərinə mənəvi keyfiyyətlərin aşılanması vəziyyəti araşdırılmış və nəticəsi qeydə alınmışdır. Başqa sözlə desək, eksperimentin 1-ci mərhələsində V-VIII sinif şagirdlərinə muğamların öyrədilməsi zamanı mənəvi keyfiyyətlərin aşılanmasının vəziyyətini dəqiq müəyyənləşdirmək üçün bir neçə istiqamət üzrə iş aparılmışdır. Birinci istiqamət üzrə aparılan işin məzmununa aşağıdakılar daxil idi:

1. Məktəb rəhbərlərinin muğamların öyrədilməsinə münasibətini öyrənmək. Bu məsələnin onların iş planlarında əks olunmasının vəziyyəti ilə tanış olmaq.
2. Məktəb rəhbərlərinin musiqi məşğələlərini dinləmələri ilə bağlı qeydlərini nəzərdən keçirmək.
3. Sinif rəhbərlərinin muğam ifaçılığına münasibətlərinin vəziyyətini öyrənmək.
4. Məktəbin uşaq və gənclər təşkilatlarının muğama, məktəbdəki muğam ifaçılığına olan münasibətlərini öyrənmək.

Daha sonra ikinci və üçüncü istiqamətlər üzrə aparılan işlərin məzmunu yarımfəsildə açıqlanır. Nəticədə göstərilən istiqamət üzrə aparılan işlər eksperimental işin müəyyənedici mərhələsi kimi yekunlaşdırılır.

I fəslin dördüncü yarımfəsli **"Problemin pedaqoji-psixoloji əsasları"** adlanır. Bu yarımfəsildə musiqi məşğələlərində muğamlar vasitəsilə

yuxarı sinif şagirdlərinin mənəvi keyfiyyətlərinin formalaşdırılması zamanı onların həm pedaqoji cəhətdən müşahidə edilərək qiymətləndirilməsi, həm də psixoloji cəhətdən öyrənilərək dəyərləndirilməsi öz əksini tapır.

Yarımfəsildə musiqi məşğələlərində V-VIII sinif şagirdlərinin mənəvi cəhətdən saflaşdırılmasının pedaqoji cəhətdən formalaşdırılması məsələsinə aydınlıq gətirilmişdir. Burada muğamların öyrədilməsi zamanı mənəvi keyfiyyətlərin üzə çıxarılaraq formalaşdırılması üçün məsələnin pedaqoji əsaslarının dərindən öyrənilməsinə zəruri ehtiyac olduğu vurğulanır. Göstərilir ki, musiqi məşğələlərində muğamların öyrənilməsi zamanı yuxarı sinif şagirdlərinin mənəvi keyfiyyətlərinin formalaşdırılması üçün nəzərdə tutulan pedaqoji əsaslar deyəndə aşağıdakılar diqqətə çatdırılır:

1. Musiqi məşğələlərində muğamların öyrədilməsi zamanı V-VIII sinif şagirdlərinin mənəvi keyfiyyətlərinin formalaşdırılmasından ötrü onların müvafiq xüsusiyyətlərinin nəzərə alınması;

2. V-VIII və VIII-IX siniflər üzrə həm təlim prosesində, həm dərsdən və məktəbdənkənar tədbirlərdə muğamların öyrədilməsi zamanı ümumpedaqoji prinsiplərə, üsullara və mərhələlərə istinad olunması, birinci halda muğamlara maraqları, meyilləri olan, onları həvəslə dinləyən, muğamların söz tərəfini öyrənməyə qabiliyyəti olan uşaqlara üstünlük verilməsi daha məqsədəmüvafiqdir.

İkinci halda musiqi məşğələlərində muğamların öyrədilməsi zamanı V-VIII və VIII-IX sinif şagirdlərinin mənəvi keyfiyyətlərinin üzə çıxarılması və inkişaf etdirilməsi üçün ümumpedaqoji prinsiplərə istinad olunması da zəruri hesab olunur. Musiqi müəllimlərinə, eləcə də bədii yaradıcılıq dərnəklərinin və maraq kurslarının rəhbərlərinə köməklik etmək, istiqamət vermək məqsədi ilə həmin ümumpedaqoji prinsiplərə istinad etməyin yolları da yarımfəsildə göstərilmişdir.

Yarımfəsildə həmçinin V-VIII sinif şagirdlərinə muğamların öyrədiməsi zamanı onlara psixoloji yanaşmağa üstünlüyün verilməsi və pedaqoji prosesdəki bütün halların psixoloji əsaslarının öyrənilməsi də öz elmi-psixoloji həllini tapmışdır. Burada qabiliyyətli uşaqların seçilməsi, onların ümumi və xüsusi qabiliyyətlərinin dərindən öyrənilməsi məsələləri də öz əksini tapır.

Dissertasiyanın II fəsli **“Təlim-tərbiyə prosesində muğamların öyrənilməsi zamanı yuxarı sinif şagirdlərinə mənəvi keyfiyyətlərin aşılanması yolları”** adlanır. Bu yarımfəslin **“Musiqi dərslərində muğamların öyrədilməsi zamanı yuxarı sinif şagirdlərinə mənəvi keyfiyyətlərin aşılanması yolları”** adlanan birinci yarımfəslində musiqi dərslərində muğamların şagirdlərə aşıladığı mənəvi keyfiyyətlərin mahiyyəti aydınlaşdırılır.

Burada muğamların həm birinci, yəni melodiya, həm də ikinci, yəni söz tərəfinin aşıladığı keyfiyyətlərin nəzəri və praktik cəhətləri aydınlaşdırılır.

Yarımfəsildə göstərilir ki, muğamlarımızı milli-mənəvi dəyər kontekstində şərh etmək işində musiqi müəllimlərimiz müəyyən qədər çətinlik çəkirlər. Unutmaq olmaz ki, muğamlarımızı milli-mənəvi dəyərlər kimi təqdim etmək üçün onların qnesioloji məzmununu, elmi-tarixi köklərini musiqi müəllimləri dərindən bilməlidirlər. Onlar şagirdlərə çatdırmalıdırlar ki, Azərbaycan muğamları eramızdan əvvəlki dövrdə (Lullubilər, Kutilər, Manna, Midiya, Atropatena, Albaniya dövlətləri zamanı) də, eramızın sonrakı dövrlərində də (Sasanilər, Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Atabəylər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, xanlıqlar zamanı, sovetlər dövrü də daxil olmaqla) gündən-günə, ildən-ilə inkişaf etmiş, əsrlər boyu tərəqqi dövrü keçirmişdir. Bu dövrlər içərisində muğamın ən keşməkeşli dövrü Sasanilər dövrü hesab olunur. Ona görə ki, eramızın II əsrindən etibarən, sasanilər ilhaq etdiyi Azərbaycanın həm torpaqlarına, həm elminə, mədəniyyətinə və incəsənətinə sahib olmuşlar. Sasanilərin muğamlara marağı da II-VI əsrlərdən başlamışdır.[1]Bütün bunlara baxmayaraq, Azərbaycan muğamlarının həm muğamat, həm də qəzəliyyat tərəfləri sənət adamlarının, muğam pərəstişkarlarının ciddi səyi ilə təşəkkül tapmışdır. Ona görə fars muğamları şöbə səviyyəsindən yuxarı qalxmadığı halda, Azərbaycan xalqı öz muğamlarını dəstgah kimi mənəvi dəyərlər səviyyəsinə qaldırmışdır.

Yarımfəsildə bütün muğamların, o cümlədən “Rast”, “Şur”, “Segah”, “Cahargah”, “Bayatı-Şiraz”, “Hümayun” və “Şüstər” muğamlarının özlərinin, həmçinin şöbə və guşələrinin adlarının etimologiyasındakı, həm də onların ifa tərzindəki mənəvi tərbiyə elementlərinin şagirdlərə çatdırılmasının spesifik xüsusiyyətləri göstərilir.

Məsələn, “Şur” muğamını öyrədərkən musiqi müəllimi bütün şöbə və guşələrin mahiyyətindəki mənəvi keyfiyyətlər aşılayan tərəflərin üzə çıxarılması istiqamətində xüsusi iş aparmalıdır. Əlbəttə, “Şur” muğamının şöbələri ilə bağlı təklif etdiyimiz iş metodikası şagirdlərin nəinki bədii zövqlərini inkişaf etdirir, hətta onların mənəvi keyfiyyətlərinin üzə çıxarılmasına ən zəruri şərait yaratmış olur. Bu prosesdı aydın şərhlər şagirdlərin mənəvi keyfiyyətlərinin üzə çıxarılmasına nəinki yol açır, həm

---

[1] . Sadıqov F.B. Muğam (dərs vəsaiti). Bakı, Zərdabi LTD, 2011, s. 136

də bu yolda şagirdlərə qeyri-adi vərdişlər qazandırır. Belə vərdişlər şagirdlərin mənəvi dünyasına hakim kəsilir.

"Şur" muğamının üçüncü şöbəsi "Bayatı-Türk" adlanır. Bu şöbə təkcə Azərbaycan muğamında yox, demək olar ki, bütün ümumtürk muğamlarında ifa olunur. Mir Möhsün Nəvvab muğamları təsnif edərkən ümumtürk muğamlarına xüsusi üstünlük vermişdir. M.M.Nəvvab "Rast", "Vilayəti", "Raki-Hindi", "Azərbaycan", "Şah Xətai", "Mavərənnəhr", "Novruzi-Əcəm", "Bayat" (Bayatı), "Əbülcəp" (Çəp Əbil), "Şüştər" (Şiştər sözün təhrif olunmuş forması olub, ən yeni ucalıq deməkdir. "Tərtər"dəki "tər" sözü də bu qəbildən olan sözlərdəndir) "Şahnaz", "Bayatı-Türk", "Bayatı-Qacar", "Bayatı-Kürd", "Hisar", "Müxalif", "Məğlub", "Tərkib", "Əfşari", "Heyratı", "Osmanlı", "Qarabaği", "Şirvani", "Koroğlu" kimi muğam nümunələrinin ümumtürk muğamlarına aid olmasını bəyan etmişdir.

Bu qəbildən olan muğam nümunələrindən biri də, "Şur"un üçüncü şöbəsi sayılan "Bayatı-Türk"dür ki, "Türk bayatısı" mənasını verir[2].

"Şur" muğamı ilə bağlı iş apararkən musiqi müəlliminin adı çəkilən şöbə haqqında daha müfəssəl məlumatları verməsi zəruridir. Bu zərurəti əsaslandıran cəhət "Bayatı-Türk" anlayışındakı "Bayat" və "Türk" tərəflərinin daha aydın izahı ilə bağlıdır. Ona görə müəllimin həmin söz tərəflərini aşağıdakı şəkildə açıqlaması məsləhətdir:

Qədim türk tayfalarından biri olan Bayatların (bir sıra mənbələrdə "boyat" yəni "boy atmaq", "inkişaf etmiş xalq" mənasında, bəzilərində "qədim xalq" mənalarında verilir. Bu gün dilimizdə qalan "boyat" sözü köhnə mənasında işlədilir) Oğuz tayfaları ilə ittifaqı nəticəsində dövlətçilik strukturları yaratmaları göstərilir. "Gültəkin" abidəsində (VI-VII əsrlər) doqquz oğuz xalqlarına müraciətdə bu xalqlardan birinin də Bayatlar olduğu qeyd edilir. Mahmud Kaşğarinin, Rəşidəddinin, Dəvadarin, Yazıçıoğlu Əlinin və Əbül Qazinin əsərlərində də bu barədə məlumat verilir. Mənbələrdə oğuzların 20-25 "budun"un (xalqının) 2 yerə parçalanması və sonralar "Doqquz Oğuz" tayfa ittifaqının əmələ gəlməsi göstərilir. "Dədə Qorqud" boylarında isə oğuzların və bayatların qopuzu müqəddəs alət hesab etmələri təsvir olunur. Bayatların sözə, şeirə, musiqiyə bağlılığı, onların bayatıların, muğamların, türkülərin təşəkkül tapmasında müstəsna rolu olduğu da qeyd edilir. "Bayat-Türk", "Bayatı-Əcəm", "Bayatı-Qacar", "Bayatı-İsfahan", "Bayatı-

---

[2]. Sadıqov F.B. Muğam (dərs vəsaiti). Bakı, Zərdabi LTD, 2011, 144 s.

Şiraz" muğamlarının göstərilən ərazilərdə məskunlaşan bayatların yaratdıqları ehtimalı da diqqətə çəkilir[3].

Muğamların bütün şöbə və guşələrinin mənəvi keyfiyyətlər aşılayan cəhətləri bu şəkildə yarımfəsildə şərh olunur.

II fəslin **"Dərsdənkənar tədbirlərdə muğamların öyrədilməsi zamanı yuxarı sinif şagirdlərinin mənəvi keyfiyyətlərinin formalaşdırılması yolları"** adlanan ikinci yarımfəslində dərsdənkənar tədbirlərdə məktəblilərə muğamların öyrədilməsi prosesində onlara mənəvi keyfiyyətlərin aşılanmasının forma və metodları öz əksini tapmışdır. Burada bir sıra dərsdənkənar və məktəbdənkənar tədbirlərdə muğamların öyrədilməsi prosesinin elmi, pedaqoji və metodik cəhətdən əsaslandırılmış modeli təqdim olunur. Yarımfəsildə göstərilir ki, orta ümumtəhsil məktəblərində muğamların öyrədilməsi musiqi dərsləri ilə yanaşı, dərsdənkənar tədbirlərdə, bədii yaradıcılıq dərnəklərində və eləcə də maraq kurslarında böyük müvəffəqiyyətlə həyata keçirilir.

Məktəbdənkənar tədbirlər içərisində "Muğam gecələri", "Muğam saatı", "Muğam ifaçılığı məktəbi", "Muğam ifaçıları ilə görüşlər", "Muğam sənəti və mənəviyyat", "Muğam və dünyamız" adlı tədbirlərin şagirdlərin estetik tərbiyəsi ilə yanaşı, onların mənəvi keyfiyyətlərinin formalaşdırılması baxımından əhəmiyyəti daha böyükdür. Dərsdənkənar tədbirlərlə yanaşı, bədii yaradıcılıq dərnəklərinin və maraq kurslarının təşkili və fəaliyyətində də V-VIII sinif şagirdlərinin mənəvi keyfiyyətlərinin təşkilinə geniş imkanlar açılmış olur. Bu baxımdan bədii yaradıcılıq dərnəkləri içərisində "Azərbaycan xalq musiqisi" , "Muğam", "Muğam ifaçılığı", "Muğam sənəti", "Azərbaycan muğamları", "Xalq çalğı alətləri dərnəyi", "Tar dərnəyi", "Kamança dərnəyi", "Qarmon dərnəyi", "Xor dərnəyi", "Vokalçılar dərnəyi", "Muğam və mahnı", "Muğamlar, təsniflər və mahnılar" adlı dərnəklərin təşkili çox faydalıdır. Belə dərnəklərdə Azərbaycanın milli muğamlarının öyrədilməsi zamanı dərnək rəhbərinin musiqi təhsilinin olması, muğam ifaçılığına dair xüsusi səriştə qazanması çox vacibdir. Belə dərnəklərdə muğamların öyrədilməsinə dair işin elmi-pedaqoji-metodik cəhətdən düzgün planlaşdırılması çox önəmlidir. İlk məşğələdən başlayaraq dərnək rəhbərlərinin muğamla bağlı nəzəri məlumatlar vermələri tövsiyə olunur.

Bu yarımfəsildə dərnək rəhbərlərinin problemlə bağlı verdikləri şərhlər də metodik tövsiyə xarakteri daşıyır. Bir nümunəyə diqqət edək:

---

[3]. Yenə orada

-Əziz uşaqlar, dinləyicidə "mənəviyyat" bütövlüyünü formalaşdıran "Çahargah" maraqlı dramatik süjetə malikdir. Bir sıra mənbələrdə "Çahargah"ın müəyyən süjetə malik olması barədə fikir yürüdülür. Bizim fikrimizcə, bu süjet xəttinin aşağıdakı mərhələlər üzrə inkişaf etməsini müvafiq ardıcıllıqla şərh etmək daha yaxşı və inandırıcı olar. "Maye Çahargah"dakı "Zəngi-şütür" birinci mərhələnin ilk inkişaf dinamikasını təşkil edir. Yəni qələbə əzmi ilə döyüşə atılan ağıllı və tədbirli bir sərkərdə ilkin olaraq süvari və piyada qoşun növündən əvvəl dəvələrdən istifadə edir. Döyüşə hazırlaşdırılmış, xüsusi döyüş qiyafəsində olan dəvələr əvvəlcə ahəstə hərəkət edərək düşməni vahiməyə salır.

Dissertasiyada eksperimental işin məzmununda bədii yaradıcılıq dərnəklərində və maraq kurslarında şagirdlərə muğamların öyrədilməsi zamanı onlara mənəvi keyfiyyətlərin aşılanması və alınan nəticələrin doğruluğunun təsdiq olunması öz əksini tapır. Qoyulan sualları əvvəlcə bu işə rəhbərlik edənlər cavablandırırlar.

Musiqi müəllimləri ilə yanaşı, bədii yaradıcılıq dərnəklərinə və maraq kurslarına rəhbərlik edənlər sorğu anketində verilən sualları cavablandırmaqda iştirak etdilər. Cavablar araşdırılıb təhlil edilərkən məlum oldu ki, sorğu anketini cavablandıran 50 mütəxəssisin heç birisi suallara yüksək səviyyəli cavablar verməmişdir. Hətta orta səviyyəli cavabların sayı da az olmuşdur. Alınan cavabların səviyyəsi aşağıda təqdim etdiyimiz cədvəldəki kimi olmuşdur.

**Musiqi müəllimləri, dərnək və maraq kursları rəhbərləri ilə aparılan sorğu anketi № 2**

| № | Sualların həcmi | Sorğuda iştirak edənlərin sayı: 50 | Suallar | | |
|---|---|---|---|---|---|
| | Suallara cavab verənlər | Suallara cavab verənlərin sayı | Cavabların səviyyəsi | | |
| | | | Yüksək | Orta | Aşağı |
| 1. | 1-ci suala cavab verənlər | 50 | - | 3 | 47 |
| 2. | 2-ci suala cavab verənlər | 48 | - | 2 | 46 |
| 3. | 3-cü suala cavab verənlər | 48 | - | 2 | 46 |
| 4. | 4-cü suala cavab verənlər | 49 | - | 3 | 46 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 5. | 5-ci suala cavab verənlər | 50 | - | 3 | 47 |
| 6. | 6-cı suala cavab verənlər | 49 | - | 2 | 47 |
| 7. | 7-ci suala cavab verənlər | 48 | - | 1 | 47 |
| 8. | 8-ci suala cavab verənlər | 49 | - | 1 | 48 |
| 9. | 9-cu suala cavab verənlər | 49 | - | 1 | 48 |
| 10. | 10-cu suala cavab verənlər | 50 | - | 4 | 46 |
| 11. | Cəmi: | 48-50 | - | 1-4 | 46-48 |

Sorğu anketindən göründüyü kimi, sorğuda iştirak edən, muğam öyrədən mütəxəssisdən, yəni 50 nəfər musiqi müəllimindən, dərnək və maraq kursları rəhbərlərindən heç birisi mənəvi keyfiyyətlərin məzmunu, muğamların mənəvi keyfiyyətlər aşılamasının xüsusiyyətləri barədə suallara cavab verə bilməmişlər. Daha konkret desək, "Mənəvi keyfiyyətlər hansı keyfiyyətlər hesab olunur" sualına 50 mütəxəssisin hamısı cavab versə də, onlardan yalnız ikisinin cavabı orta səviyyəli cavab kimi qeydə alınmışdır. "Mənəvi tərbiyə deyəndə nə başa düşülür?" sualının cavablarının da böyük əksəriyyəti şablon cavablar olmuşdur.

Növbəti mərhələdə şagirdlərlə aparılan sorğunun nəticələri öz əksini tapmışdır. Sorğunun cavablarında şagirdlərin mənəvi keyfiyyətlərinin üzə çıxmasını aydın görmək olar.

**VII$^{a}$ eksperimental sinif şagirdi A-nın cavabından:** Muğamlar bədii zövq aşılamaqla yanaşı, adamı coşdurur, ruha gətirir, mübarizəyə səsləyir. "Çahargah" muğamını dinləyərkən adam özünü daha cəsarətli, mətanətli, əzmli, mübariz, məğlubedilməz hiss edir. Adam istəyir ki, durub Qarabağı azad etməyə getsin.

**VIII$^{a}$ sinif şagirdi T-nin cavabından.** Muğam xalqımızın mənəvi xəzinəsidir. Bu mənəvi xəzinədən faydalanan hər kəs mənəvi cəhətdən çox zəngin olur. Mən "Çahargah" muğamının şöbələrini dinlədikcə həm mədəni istirahət etdim, həm də daxilən saflaşdım. Çünki muğam dəstgahı məni daxilən elə zənginləşdirdi ki, elə bildim məndən dövlətli, şəfqətli, mərhəmətli və qüdrətli heç kəs yoxdur.

Digər şagirdlərin cavablarında da muğamın mənəvi keyfiyyətlər

aşılayan cəhətləri, tərəfləri ilə bağlı bu tipli şərhlər, fikirlər, ideyalar var. Məhz ona görə də 16 şagirdin əksəriyyəti yüksək səviyyədə cavablar vermişdir. Onların yalnız bir neçəsi orta səviyyəli cavabla kifayətlənmiş, cavab verməyən şagird isə olmamışdır. Kontrol siniflərdən sorğuya cəlb olunan şagirdlər isə tam əksinə olaraq yüksək səviyyəli cavablar verməmişlər. Onlardan yalnız bir neçə şagird aşağı səviyyəli cavab yazmışdır. Orta səviyyəli cavab isə olmamıdşır. Nəticə aşağıdakı cədvəldəki kimi olmuşdur.

**Eksperimental və kontrol siniflərindən maraq kurslarına cəlb olunan şagirdlərlə aparılan sorğu anketi № 3**

| Sıra № | Sualların sırası və şagirdlərin sayı | Cavablar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Eksperimental sinif şagirdlərinin cavablarının səviyyəsi | | | Kontrol sinif şagirdlərinin cavablarının səviyyəsi | | |
| | | Yuxarı | Orta | Aşağı | Aşağı | Orta | Yuxarı |
| 1. | 1-ci s. (15 şagird) | 14 | 1 | - | 15 | 0 | - |
| 2. | 2-ci s. (15 şagird) | 13 | 1 | - | 15 | 0 | - |
| 3. | 3-cü s. (16 şagird) | 14 | 2 | - | 15 | 1 | - |
| 4. | 4-cü s. (16 şagird) | 14 | 2 | - | 15 | 1 | - |
| 5. | 5-ci s. (16 şagird) | 14 | 2 | - | 15 | 1 | - |
| 6. | 6-cı s. (15 şagird) | 14 | 1 | - | 14 | 1 | - |
| 7. | 7-ci s. (16 şagird) | 14 | 2 | - | 15 | 1 | - |
| 8. | 8-ci s. (16 şagird) | 14 | 2 | - | 15 | 1 | - |
| 9. | 9-cu s. (14 şagird) | 13 | 1 | - | 13 | 1 | - |
| 10. | 10-cu s. (15 şagird) | 13 | 2 | - | 14 | 1 | - |
| 11. | 11-ci s. (15 şagird) | 13 | 2 | - | 13 | 1 | - |
| 12. | 12-ci s (14 şagird) | 13 | 1 | - | 14 | 1 | - |
| 13. | 13-cü s. (16 şagird) | 14 | 2 | - | 14 | 1 | - |
| 14. | 14-cü s. (16 şagird) | 14 | 2 | - | 14 | 1 | - |
| 15. | 15-ci s. (16 şagird) | 14 | 2 | - | 14 | 1 | - |
| 16. | 16-cı (16 şagird) | 14 | 2 | - | 14 | 1 | - |

Cədvəldən göründüyü kimi, eksperimental sinif şagirdlərindən maraq

kurslarına cəlb olunan şagirdlərin muğamlarla, onların mənəvi keyfiyyətlər aşılaması ilə bağlı fikirləri, əsasən yüksək olmuşdur. VII[a] və VIII[a] eksperimental siniflərdən maraq kurslarına cəlb olunan, öyrədici materiallar əsasında bilik, bacarıq və vərdişlər qazanan 16 şagirdin demək olar ki, hamısı yuxarı səviyyəli cavablar vermişdir. Orta səviyyəli cavabların sayı isə müvafiq olaraq 1-2 nəfər olmuş, aşağı səviyyəli cavab olmamışdır. Kontrol siniflərdən sorğuya cəlb olunan şagirdlərin isə hamısı aşağı cavablar vermiş, orta səviyyəli cavab verənlər isə olmamışdır. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan muğamları yetişən nəslin estetik bədii zövqlərini oxşamaqla yanaşı, onların mənəvi cəhətdən zənginliyini də təmin etmiş olur.

Yarımfəsil yekunlaşdırılaraq eksperimentin nəticələri aşağıdakı şəkildə ümumiləşdirilir:

- Sinifdənxaric işlərdə, dərsdənkənar tədbirlərdə muğamların öyrədilməsi zamanı musiqi müəlliminin novatorluğu ilə, yeni pedaqoji texnologiya və innovasiyaların köməyi ilə, ümumpedaqoji tələblər, prinsiplər və üsullara istinad etməklə məqsədyönlü, planlı və mütəşəkkil olaraq həyata keçirilən iş vasitəsilə yeniyetmə şagirdlərin mənəvi keyfiyyətlərini formalaşdırmaq olar.

II fəslin üçüncü yarımfəsli **“Muğamların öyrədilməsi zamanı məktəblilərin bədii zövqləri ilə yanaşı, mənəvi keyfiyyətlərinin üzə çıxarılması, formalaşdırılması və modernləşdirilməsi”** adlanır. Bu yarımfəsildə Azərbaycan muğamlarının ikitərəfli təsir gücünə malik olması öz əksini tapır. Həmçinin yarımfəsildə muğamların tədrisi zamanı məktəblilərə hər bir muğamın estetik-bədii zövqə malik olan cəhətlərini mənimsəməklə yanaşı, həmin muğamın mənəvi keyfiyyətlər aşılayan tərəflərini öyrətmək barədə elmi ideyalar irəli sürülür. Göstərilir ki, muğamları estetik tərbiyə amilləri ilə məhdudlaşdırmaq olmaz. Doğrudur, muğamlar, əsasən, estetik tərbiyə vasitəsi hesab olunur. İnsanların bədii zövqünü formalaşdırır, mədəni istirahətini təşkil edir, onları bədii yaradıcılığa sövq edir, estetik-bədii dünyagörüşlərini inkişaf etdirir. Muğamdan həzz alanların yorğunluğu çıxır. Muğam dinləyicilərin estetik bədii hiss və duyğularını tənzimləyir. Lakin unutmaq olmaz ki, muğam həm də ideya-siyasi, fiziki, əmək, işğüzarlıq, ekoloji, iqtisadi və əxlaq tərbiyəsinin də mühüm vasitəsi hesab olunur. İnsan əxlaqının saflaşmasında muğam əvəzsiz rol oynayır[4].

Yaddan çıxartmaq olmaz ki, istər ibtidai sinif şagirdlərinin, istərsə də V-IX sinif şagirdlərinin bədii yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılması,

---

[4] Sadıqov F.B. Muğam (dərs vəsaiti). Bakı, Zərdabi LTD, 2011, s. 56

inkişaf etdirilməsi və formalaşdırılması üzərində iş aparılmazsa şagirdlərin nə musiqiyə, nə muğama, nə ifaçılığa, nə instrumental ifaya olan maraq və meyllərini də aşkar etmək olmaz. Musiqi dərslərində şagirdlərin instrumental ifaçılıq keyfiyyətləri qazanmaları isə onları yalnız lad-məqam xarakterli ifaçılıq səriştəsinə yiyələndirmə yolu ilə mümkun olur. İnstrumental ifa deyəndə biz şagirdlərin xalq çalğı alətlərimizə yaxınlaşdırılmasını nəzərdə tuturuq. Təəssüf hissi ilə qeyd etməliyik ki, musiqi dərslərində Azərbaycan musiqi alətlərindən çox təsadüfi hallarda istifadə olunur. Vaxtilə xalq arasında geniş yayılmış və Səfiyəddin Əbdül Mömin Urməvi, Xacə Əbdülqadir Marağalı kimi musiqişünasların əsərlərində adı tez-tez çəkilən setar, çoğanə, tanbur, cəng, səntur, bərbət, qopuz, həzzkar, bunqar, qişək, dutar, mizhar, rud, səvəndər, çeqane, ərqənun, zəmir, nəfir, mizmar, muşqar, tar, sumsü, sur, qaşığək, qidum, nəqrəzak, dəray və başqa musiqi alətlərimiz haqqında məktəblilərimizdə heç bir təsəvvür yoxdur[5]. Adı çəkilən alətlərin hər birində muğamlarımız çox möhtəşəm səslənir. Bu möhtəşəmlikdən isə estetik bədii zövqə yiyələnməyin ən uğurlu nüansları nəşət edir.

Yarımfəsildə həm musiqi dərslərində, həm də dərsdən və məktəbdənkənar tədbirlərdə muğamların öyrədilməsi zamanı məktəblilərin bədii zövqləri ilə yanaşı, onların mənəvi keyfiyyətlərinin üzə çıxarılaraq formalaşdırılması və modernləşdirilməsi elmi-pedaqoji cəhətdən sistemə salınmışdır.

Dissertasiya işində alınan nəticələr aşağıdakı kimi olmuşdur:

Azərbaycan dövlətinin milli-mənəvi sərvətimiz olan muğamlarımıza verdiyi bənzərsiz dəyərin sayəsində ifası, öyrənilməsi günü-gündən aktuallaşan muğam nümunələri vasitəsilə yetişən nəslin nümayəndələrinin mənəvi keyfiyyətlərinin formalaşdırılması problemi ilə bağlı apardığımız tədqiqat bizə aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1. Orta ümumtəhsil məktəblərində, o cümlədən Naxçıvan Muxtar Respublikasının tam orta məktəblərində, məktəbdənkənar tərbiyə müəssisələrində apadığımız müşahidələr, müsahibələr, fərdi söhbətlər, dəyirmi stollar, anket sorğuları və bu kimi digər üsulların köməyi ilə həyata keçirdiyimiz elmi-pedaqoji-metodik işlər göstərir ki, yetişən nəslin nümayəndələrinə muğamların öyrədilməsi zamanı onların estetik-bədii zövqlərinin inkişafına üstünlük verilir. Lakin məktəblilərin mənəvi keyfiyyətlərinin for-

[5] Sadıqov F.B. Muğam (dərs vəsaiti). Bakı, Zərdabi LTD, 2011, s. 72-73

malaşdırılması həyata keçirilmir.

2. Orta ümumtəhsil məktəblərinin musiqi dərslərində muğamların öyrədilməsi zamanı şagirdlərə, xüsusilə V-VIII sinif şagirdlərinə mənəvi keyfiyyətlərin aşılanması işinin həyata keçirilməməsinin əsas səbəblərindən biri musiqinin tədrisinin aşağı səviyyədə olması, musiqi məşğələlərində mənəvi keyfiyyətlərin üzə çıxarılmasına istiqamət verən təcrübəli müəllimlərin və bu işdə müəllimlərə konkret köməklik göstərən fundamental elmi-pedaqoji ədəbiyyatın olmamasıdır.

3. Ümumtəhsil məktəblərində musiqinin tədrisinin səmərəliliyinin yüksəldilməsi, dövrün müasir tələblərinə uyğun qurulması, mahnı və melodiyaların, xüsusilə muğamların öyrədilməsi zamanı şagirdlərin mənəvi keyfiyyətlərinin üzə çıxarılması üçün ilk dəfə olaraq tərəfimizdən sistemli şəkildə aparılan və fundamental tədqiqat işinin səmərəsi mövcud elmi fərziyyənin irəli sürülməsini reallaşdırmışdır.

4. Musiqi məşğələlərində muğamların öyrənilməsi prosesində məktəblilərin bədii zövqlərinin və mənəvi keyfiyyətlərinin formalaşdırılması işi ilə bağlı apardığımız fundamental tədqiqatlar zamanı problemin məzmunu şərh edilmiş, əsas məqsədi və məqsəddən irəli gələn vəzifələri müəyyənləşdirilmişdir.

5. Əsas məqsədə uyğun olaraq müəyyənləşdirilmiş vəzifələrin həllinə uyğun olaraq problemin mahiyyəti aydınlaşdırılmış və elmi-pedaqoji ədəbiyyatdakı qoyuluşu təhlilə cəlb edilmişdir. Məlum olmuşdur ki, bu günə qədər, yəni istər sovetlər ittifaqı dövründə, istərsə də müstəqillik qazandığımız hazırkı dövr musiqi təlimi ilə əlaqədar hazırlanan proqram materiallarında, dərsliklərdə, dərs vəsaitlərində, elmi-pedaqoji-metodik ədəbiyyatda muğamların öyrədilməsi zamanı məktəblilərin mənəvi keyfiyyətlərinin formalaşdırılması ilə bağlı heç bir metodik tövsiyə, göstəriş və məsləhət belə yoxdur.

6. Problemin məktəb təcrübəsində qoyuluşu onu göstərdi ki, istər musiqi dərslərində, istər bədii özfəaliyyət dərnəklərində, istərsə də maraq kurslarında məktəblilərin muğamlarla tanış edilməsi zamanı onların mənəvi keyfiyyətlərinin üzə çıxarılması, inkişaf etdirilərək formalaşdırılması işi nəzərə alınmamışdır.

7. Məktəb təcrübəsindən o da məlum oldu ki, musiqi məşğələlərində dərsdən və məktəbdənkənar tədbirlərdə məktəblilərin muğamlarla tanışlığı prosesində bu işə pedaqoji tələblər, prinsiplər, üsul və priyomlar baxımından yanaşılmamış, muğamlarla tanışlığın psixoloji əsasları nəzərə alınmamış, muğam öyrənənlərə psixoloji cəhətdən yanaşılmışdır. Bunları nəzərə alaraq tərəfimizdən ilk dəfə olaraq musiqi məşğələlərində muğamların öy-

rədilməsi işinin pedaqoji-psixoloji əsasları, yəni ümumpedaqoji prinsiplərə istinad edilməsi, ümumdidaktik üsulların tətbiq edilməsi, ümumpedaqoji və ümumdidaktik psixoloji tələblərin gözlənilməsi ilə bağlı yeni model hazırlanmışdır.

8. Ümumtəhsil məktəblərinin musiqi məşğələlərində muğamların öyrədilməsi zamanı şagirdlərə mənəvi keyfiyyətlərin aşılanması işində çətinlik çəkən musiqi müəllimlərinə və digər mütəxəssislərə istiqamət vermək məqsədi ilə muğamların, o cümlədən "Rast", "Şur", "Segah", "Çahargah", "Bayatı-Şiraz", "Şüştər" və "Hümayun" kimi muğam dəstgahlarının şöbə və guşələrinin şagirdlərin mənəvi keyfiyyətlərini üzə çıxarmaq, inkişaf etdirmək, formalaşdırmaq və təkmilləşdirmək imkanlarını və səmərəli yollarını müəyyənləşdirərək elmi-pedaqoji cəhətdən sistemə salmağa müvəffəq olduq.

9. V-VIII sinif şagirdlərinə muğam öyrədən müəllimlərə elmi-pedaqoji-metodik cəhətdən köməklik göstərmək məqsədi ilə pedaqoji prosesdə muğam dəstgahlarının, şöbə və guşələrinin adlarındakı məna çalarlarının mənəvi keyfiyyətlər aşılamaq baxımından imkanları ilə bağlı tövsiyələr paketi hazırlanmışdır.

10. Təlim prosesində musiqi müəllimlərinə muğamların öyrədilməsi zamanı şagirdlərin mənəvi keyfiyyətlərinin üzə çıxarılmasına təkan verən musiqi dinləmə məşğələlərinin təşkili ilə bağlı yeni layihə modeli təqdim edilmişdir. Hansı ki, bu modeldən istifadə edən musiqi müəllimləri hər bir muğam nümunəsinin dinlənilməsi prosesində şagirdlərin mənəvi keyfiyyətlərinin üzə çıxarılmasına nail ola biləcəklər.

11. Musiqi dərslərində muğam nümunələrinin şagirdlərə öyrədilməsi zamanı şagirdlərin mənəvi keyfiyyətlərinin üzə çıxarılması işinin modernləşdirilməsini təmin edən ən müasir elmi-pedaqoji model hazılanaraq eksperiment yolu ilə yoxlanılmış və müasir məktəblərimizdə çalışan musiqi müəllimlərinə təqdim edilmişdir.

12. Dissertasiya əsərində musiqi dərslərində muğam nümunələrinin ifası zamanı şagirdlərə mənəvi keyfiyyətlərin aşılanması ilə bağlı hazırlanmış daha bir elmi-pedaqoji model sınaqdan keçirilərək musiqi müəllimləri üçün nəzərdə tutulmuşdur. Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərindəki 12 nömrəli eksperimental məktəbin VII-VIII siniflərində eksperimental iş vasitəsilə yoxlanılaraq tətbiqinə zəmanət verdiyimiz model də tədqiqatın yeniliklərindən biri hesab olunur.

13. Dissertasiya əsərində üç mərhələdən ibarət aparılan eksperimental işin nəticələri sübut edir ki, musiqi məşğələlərində muğamların öyrədilməsi ilə bağlı tətbiq edilən yeni modellər sayəsində məktəblilərin mənəvi

siması saflaşır, onlarda səmimilik, ülvilik, yurdsevərlik, torpağı yad nəzərlərdən qorumaq, halallıq, yaxşılıq, xeyirxahlıq, başqa xalqlara hörmət (tolerantlıq), şəfqətlilik, böyüklərə ehtiram, xəstələrə, qocalara qayğı, doğrunu müdafiə etmək, yalana nifrət, inamlılıq, ləyaqətlilik, ədalətlilik, fərasətlilik, dəyanətlilik və sair bu kimi mənəvi keyfiyyətləri üzə çıxarır, formalaşdıraraq təkmilləşdirir.

14. Dərsdənkənar işlərdə və tədbirlərdə, o cümlədən musiqi kurslarında, muğam kurslarında, muğam dərnəklərində, instrumental muğam ifaçılığı dərnəyində, vokal-instrumental muğam ifaçılığı dərnəyində, habelə muğam gecələrində, muğam ifaçıları ilə görüşlərdə qazandıqları mənəvi keyfiyyətlər şagirdlərin musiqi dərslərində mənəvi tərbiyəsi ilə bağlı aldıqları bilik və bacarıqların genişləndirilməsinə şərait yaratmış olur.

15. Dərsdənkənar tədbirlərdə muğamların meydana gəlməsi, təşəkkülü, tarixi, inkişaf mərhələləri, etimologiyası, tərbiyəvi əhəmiyyəti ilə bağlı verilən məlumatların elmi-pedaqoji cəhətdən layihələşdirilməsi, məqsədyönlü, planlı və mütəşəkkil olaraq həyata keçirilməsi məktəblilərin mənəvi keyfiyyətlər qazanmasına imkan yaradır.

16. Dərsdənkənar tədbirlərdə məktəblilərə muğam öyrədilməsi zamanı onlara mənəvi keyfiyyətlər aşılanması yollarının tərəfimizdən elmi-pedaqoji model şəklinə salınması və bu modelin eksperiment yolu ilə yoxlanılması tədqiqatın nəzəri-praktik dəyərini artıran elmi yeniliklərindən sayılır.

17. Məktəbin məktəbdənkənar tərbiyə müəssisələri ilə əlaqəsi zamanı məktəblilərə muğamların öyrədilməsi prosesində onlara ən yüksək mənəvi keyfiyyətlər aşılamaq mümkündür.

18. Azərbaycan Respublikasının orta ümumtəhsil məktəblərinin uşaq və gənclər birlikləri, musiqi məktəbləri, musiqi təmayüllü gimnaziyalar, musiqi kursları, uşaq filarmoniyaları ilə milli konservatoriyanın muğam şöbələri, Musiqi Akademiyasının muğam ifaçılığı kafedrası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin muğam ifaçılığı sənəti kafedrası ilə əlaqəsi faydalı olar. Belə əlaqələr muğam öyrənən məktəblilərin estetik bədii zövqləri ilə yanaşı, onların mənəvi simasını da saflaşdırır.

19. Orta ümumtəhsil məktəbləri üçün hazırlanan musiqi proqramları materiallarına, dərsliklərə mənəvi tərbiyə problemi ilə bağlı mövzuların, sırf mənəvi keyfiyyətlər aşılayan musiqi nümunələrinin daxil edilməsi yaxşı olardı.

20. Orta ümumtəhsil məktəblərində musiqini tədris edən müəllimlərə, bədii yaradıcılıq dərnəklərinə və maraq kurslarına rəhbərlik edənlərə is-

tiqamət vermək baxımından muğamların mənəvi keyfiyyətlər aşılamaq imkanları ilə bağlı metodik ədəbiyyatın hazırlanması, həmin ədəbiyyat nümunələrinin "Muğam öyrənməyin ibtidai kursu", "Muğamlarımız, mənəviyyatımız", "Muğamlar vasitəsilə mənəvi keyfiyyətlərin aşılanması", "Uşaqlar, muğamlar və mənəvi dünyamız", "Muğamlar mənəvi tərbiyənin vasitəsi kimi" adlandırılması faydalı olardı.

21. Orta ümumtəhsil məktəblərinin nəzdində muğam kursları, muğam məktəbi və muğam ifaçılığı studiyasının yaradılması faydalı olar.

**Dissertasiyanın əsas məzmunu və nəticələri müəllifin çap olunmuş aşağıdakı müxtəlif xarakterli əsərlərində öz əksini tapmışdır:**

1. Milli muğamlarımızın öyrədilməsi zamanı yuxarı sinif şagirdlərinin mənəvi keyfiyyətlərinin formalaşdırılması / Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri. Beynəlxalq elmi konfransın materialları. Naxçıvan: 2013, s. 171-172

2. Muğamlar məktəblilərin bədii zövqlərinin və mənəvi keyfiyyətlərinin formalaşdırılmasının məqsədi kimi // Milli pedaqogika məktəbi. Bakı: Adiloğlu, 2013, № 2, s. 73-79

3. Muğamların tədrisinin modernləşdirilməsi məktəblilərin mənəvi keyfiyyətlərinin formalaşdırılması amili kimi // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Naxçıvan: Qeyrət, 2013, № 2 (54), s. 172-175

4. Azərbaycan muğamları məktəblilərin bədii zövqlərinin formalaşdırılması vasitəsi kimi / Heydər Əliyev 90. Müasir təlim metodları və yeni pedaqoji texnoloğiyaların təlim-tərbiyə prosesində tətbiqi mövzusuna həsr edilmiş Respublika konfransının materialları (03 may 2013). Naxçıvan Müəllimlər İnstitutu, 2013, s. 161-165

5. Azərbaycan muğam mədəniyyəti və onun tədrisini zəruri edən cəhətlər / Regional inkişaf və böyük mədəniyyət: mənşə, harmoniya və tipologiya məsələləri. Beynəlxalq konfrans (25-26 oktyabr 2013-cü il). Naxçıvan, 2013, s. 110

6. Muğamların tədrisi prosesində məktəblilərin mənəvi keyfiyyətlərinin formalaşdırılması yolları // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri. Naxçıvan: Məktəb, 2014, cild 10, № 1, s. 134 -139

7. Muğam mədəniyyətinin təşəkkülündə Heydər Əliyev fondunun rolu / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91 illik yubileyinə həsr olunmuş, "Sivil bazar iqtisadiyyatı münasibətlərinin inkişaf istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. 5-6 may 2014-ci il, Bakı: 2014, s. 488-492

8. Пути формирования моральных качеств подростков при обучении мугамам // Поиск международный журнал–приложение республики Казахстан, 2014, № 2 (1), с. 313-317

9. “Şur” muğamı şagirdlərin bədii zövqlərinin və mənəvi keyfiyyətlərinin formalaşdırılması vasitəsi kimi // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri. Naxçıvan: Məktəb, 2014, cild 10, № 4, s. 143-149

10. “Rast” muğamı məktəblilərin bədii zövqlərinin və mənəvi keyfiyyətlərinin formalaşdırılması vasitəsi kimi // Milli pedaqogika məktəbi. Elmi, nəzəri-metodik jurnal. Bakı: 2014, № 1, s. 56-63

11. Мугамы как средство формирования художественного вкуса и моральных качеств у учащихся // Педагогични науки зборник наукових праць. Полтава: 2014, Випуск 60, с. 84-89

12. “Segah” muğamının öyrədilməsi zamanı məktəblilərə mənəvi keyfiyyətlərin aşılanması // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri. Naxçıvan: Məktəb, 2015, cild 11, № 1, s. 121-125

13. “Çahargah” muğamının öyrədilməsi zamanı yeniyetmələrin mənəvi keyfiyyətlərinin formalaşdırılması yolları // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Naxçıvan: Qeyrət, 2015, № 1 (66), s. 188-192

14. Musiqi məşğələlərində muğamların öyrədilməsi zamanı məktəblilərə mənəvi keyfiyyətlərin aşılanması işinin pedaqoji əsasları // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Naxçıvan: Qeyrət, 2015, № 5 (70), s. 214 -218.

**М.В.Джафарова**

## Пути формирования нравственных качеств старшеклассников на занятиях по музыке при изучении мугамов

### Резюме

Диссертация называется «Пути формирования нравственных качеств у старшеклассников на занятиях по музыке при изучении мугамов» и состоит из двух глав, охватывающих семь параграфов.

Первая глава называется «Сущность, содержание, цели и задачи формирования нравственных качеств у старшеклассников на занятиях по музыке при изучении мугамов», и состоит из четырех параграфов. В параграфе, который называется «Сущность проблемы», раскрывается основная сущность работы по привитию нравственных качеств школьникам при изучении мугамов на занятиях по музыке.

Во втором параграфе, который называется «Постановка проблемы в научно-педагогической литературе», излагается постановка вопроса в научно-педагогической литературе, в параграфе, называемом «Постановка проблемы в школьной практике», анализируется состояние вопроса в практике школы. В последнем параграфе, который называется «Педагогико-психологические основы проблемы», поясняются педагогические основы, а также системно излагаются психологические основы проблемы.

Вторая глава называется «Привитие нравственных качеств у старшеклассникам в процессе обучения и воспитания при изучении мугамов». Эта глава состоит из трех параграфов. В первом параграфе, который называется «Пути привития нравственных качеств у учащихся в старших классах на уроках музыки при изучении мугамов», указываются принципы, методы и эффективные пути привития нравственных качеств учащимся на всех этапах уроков музыки. А во втором параграфе указываются пути привития нравственных качеств у учащихся старших классов при изучении мугамов во внеурочных мероприятиях. Наряду с художественным вкусом учащихся, выявление их нравственных качеств, проблема их формирования при изучении мугамов находит свое пояснение в последнем параграфе.

В диссертации находит свое отражение доказанность научной гипотезы путем экспериментальной работы. Диссертация завершается заключением, предложениями и библиографией.

**M. G. Geferova**

## Forming moral qualities of upper class students while teaching mugams at music lessons

### Summary

Dissertation is called "Forming moral qualities of upper class students while teaching mugams in music lessons" and consists of two units and seven subunits. The first unit called "The essence, content, Aim, and duties of the Work of Forming Students moral qualities while teaching mugams in music lessons" consists of four subunits. The main essence of teaching moral qualities is exsplained in the unit which is called "The Essence of the Problem".

Setting the problem in the scientific – pedağoğical literature is analysed in the second subunit called "Setting the problem in scientific – pedagogical literature", but in the subunit "Setting the problem in school experience" the case of the problem in school exsperience is exsplained. İn the last subunit called "The pedagogical essence of the problem" both pedagogical essence of the problem and psychological essence are explained systematically.

The second unit is called "Teaching moral qualities to students while training mugams in the teaching process." This unit consists of three subunits. In the first subunit called "The Teaching ways of moral qualities to students in the upper class students during music lessons" the prinsiples, useful ways of teaching moral qualities are given systematically. In the second subunit the way of teaching moral qualities to V-VIII form students in out-of-school ceremonies are shown. The problem of forming students, both artistic tastes and moral qualities are explained scientifically.

The proving of scientific fiction by experimental work is also placed in the dissertation. The dissertation ends with a result, proposal and the list of literature.

Çapa imzalanmışdır: 03.05.2017
Formatı: 60x90, 16/1,həcmi: 1.6 ç/v.
Tiraj:100,  sifariş № 24

NDU-nun "Qeyrət" nəşriyyatının mətbəəsində çap olunmuşdur

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**МЕХРИБАН ВАГИФ КЫЗЫ ДЖАФАРОВА**

# ПУТИ ФОРМИРОВАНИЯ НРАВСТВЕННЫХ КАЧЕСТВ У СТАРШЕКЛАССНИКОВ НА ЗАНЯТИЯХ ПО МУЗЫКЕ ПРИ ИЗУЧЕНИИ МУГАМОВ

**5804.01- Обшая педагогика, история педагогики и образования**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени доктора философии по педагогике**

**Нахчыван -2017**